# SABİR RÜSTƏMXANLIYA TƏŞƏKKÜR ƏVƏZİ



*Aydın CANIYEV,*
*yazıçı-publisist*

**Yusif Rzayev: "Ay ipləmə, hələ sən Süleyman Rəhimovu oxu, anla, qiymətini bil, sonra mənə Freyddən, Kafkadan, Folknerdən danışarsan"**

*(Epiqraf əvəzi)*

Uzaqdan başlayacam, lap uzaqdan – bu günəcən davam edən uzaqlardan, uzaqlıqdan və üzağlığından.

Azərbaycanda nəşriyyat-poliqrafiya sistemində iki nəhəng ünvan varsa, onun Birincisi də Lənkəranlıdır, İkincisi də. Şəddat Cəfərovu bütün ölkə tanıyır, amma Mehman Fərzullayevi ya tanımırlar, ya da tanıyanlar layiq olduğu ucalıqdan YERİ GƏLƏNDƏ "danışmağa qısqanırlar" demirəm, babal yuyaram, abırla "ərinirlər" deyirəm!

Həmin haqqında danışdığım Mehman Fərzullayev tələbə ola-ola yazılarına görə, o vaxtın AZ.TV-sindən də, Sumqayıt yerli radio verilişləri redaksiyasından da, mövcud iki-üç qəzetdən də qonorar və üstəlik də işlədiyi mətbəədən də maaş alıb. Deməyim o ki jurnalistika və naşirlik sahəsində bütün sferalar üzrə kamil imzalardan olub. Tahir Salahovdan, Toğrul Nərimanbəyovdan, Fikrət Əmirovdan, Arif Məlikovdan ta Hüseyn Əliyevəcən hamısı, loru dillə desək, müştərisi olub. İş görüb, iş aşırdığı da Laptevdən tutmuş Qalkinəcən (tanıdığınız Maksimin atası, Puqaçovanın qaynatası) hamısı. Ən "balaca" dostu hökümətdə Sadıq Murtuzayev, ən yaxın tanışı mətbuat naziri Sabir Rüstəmxanlı və başqaları olan Hacı Mehman Fərzullayevlə yazıya giriş etməyimin bir incə tərəfi var: bütün milli, dini, siyasi bayramlarda və əlamətdar günlərdə, istisnasız olaraq, Hacı Mehman ertədən özü zəng edir təbrik edir! O qədər ertədən ki, bir dəfə özünə dedim: - Hacı, məni utandırırsınız, xəcalət çəkirəm hər dəfə Siz təbrikə, bayramlaşmağa irəli düşəndə...

Sözümü yarımçıq kəsdi:

- Şəkərim, mən səndən böyüyəm! Mən birinci təbrik etməliyəm!

Hacı mənim onun hüzurunda necə durduğumu və durumumu bildiyi üçün belə bir əlavə də etdi:

- Rəhmətlik İqrar Əliyev və Hacı Balağa Bağırovdan bizə qalan üstün keyfiyyətlərdəndir. Onlar deyərdilər ki, siz də belə edin, ənənə kimi yaşasın. Rəşid Mahmudov, Kamran Hüseynov, Sadıq Murtuzayev də belə edərdilər. Bizə qalan böyüklüyü elə biz də yaşatmalıyıq!

30 ildir rəsmi etiket qaydalarının tələbi istisna olmaqla, mən heç vaxt özümdən böyükləri nə təbrik edirəm, nə də bayramlaşmağa tələsirəm! Kim özünü məndən böyük bilib, məndən bütün növ sayğını gözləyirsə, ümidini puç bilsin!

Mən - Biz böyükləri və böyük davranışları 30 il qabaqdan görmüşük, bilirik və yaşadacağıq!

İKİNCİ BİR MƏQAM isə... Nüsrət Kəsəmənliyə verilməyən, Məmməd İsmayılın da hələ almadığı "xalq şairi" adı, Şakir Yaqubovun isə "əməkdar jurnalist" təltifinə layiq görülmədiyi dünyada Davranışın Əxlaqi Dərəcəsini Təyinetmə Meyarı olan Sözə ehtiramdır! O ehtiramı da Şakir Yaqubovdan gördüm!

İkinci kurs tələbəsi olanda, Milli Azadlıq Hərəkatı vüsət alanda, yazdığım özgür yazıları işlədiyimiz qəzetdə verə bilməyən Şakir Yaqubov redaksiyaları nəşriyyatda yerləşən bütün digər qəzetlərin redaktorlarına şəxsən özü təqdim edirdi, hətta "Azadlıq" qəzetinin məsul katibi Azər Əhmədovacan ağız açırdı!

Bir neçə dəfədən sonra qayıtdım ki, Şakir müəllim, siz niyə bu originalları götürüb düşürsünüz redaktorların yanına, özüm də apara bilərəm də!

Şakir müəllim:

- Kişi! Əvvəla, sən özün bilmirsən nə yazıbsan, ikincisi də o redaktorlar heç bilməz! Mən təqdim etməyə, izahat verməyə məcburam! Ki... bu yazının verilməyinin vacib, lazım olduğunu anladım! Sən yazını verərsən, "yaxşı, baxarıq" deyib atarlar zibilqabına!

ÜÇÜNCÜ BİR MƏQAM... Böyüklük, Böyük Söz Əxlaqın Təntənəsini təmin və ifadə edir! Hər şey, bax, həmin bu məqamdadır! Daha doğrusu, verilən reaksiyadan!

XÜSUSİ VURĞULAYIRAM: Təmənnasız, məqsədsiz, ürəkdən yazılan yazılardan söhbət gedir! Yoxsa ki... o tip yazıların da mahiyyətini, məqamını görüb-gəlmiş adamlarıq!

Bir ara az qala anekdot kimi danışılmağa başlanılmışdı: "Aydınlıq" qəzetində Zərifə xanım Əliyevadan gedən yazını oxuyan Heydər Əliyev şəxsən redaksiyaya zəng edib, təşəkkür edib və... hakimiyyətə gələn kimi... guya da "Aydınlıq" qəzeti tam heyətdə barmaqları ilə məhz o yazıya görə bal tutdu!

Əvvəla, heç kim hərif deyil, əvvəladan da əvvəl, Siz Heydər Əliyev deyilsiniz, ola da bilməzsiniz, ikincisi də, hər yazı Böyüklük, Böyük Söz olaraq, Əxlaqın Təntənəsini təmin və ifadə etməz!

ETİRAF EDİRƏM: Çoxlu yazılarım olub. Razı qalanlar, adətən, mənə yox, yazının dərc olunduğu qəzetin baş redaktoruna zəng edib təşəkkür, minnətdarlıq və s. "şeylər" ediblər, mənə üç nəfər zəng edib!

Birinci dəfə zəng olub 2003-cü ildə - ölməz şairimiz Bəxtiyar Vahabzadədən. Tanımadığım nömrədən gələn zəngə cavab verəndə mərhum xalq şairimizin səsini eşidəndə tutulub qaldım. Evdəkilər qorxdu hətta. Özümü toparlayıb "mən sizə təşəkkür edirəm, Bəxtiyar müəllim" deyəndən sonra hamımızın rəngi-rufu özünə gəldi: "Ulus" qəzetində Bəxtiyar Vahabzadə haqqında,- şair dostunun sponsoru olduğu redaksiya, - çox bərbad bir yazı getmişdi, heç kimə heç bir daş atmadan Bəxtiyar Vahabzadənin portretini çəkmişdim.

Şairimiz də nömrəmi tapıb, evimin yerini soruşdu. Sürücüsünü bizə göndərəcəyini və "mükafatı" çatdıracağını dedi. Əlbəttə ki, qəti etirazımdan - əgər elə bir şey olsa, özümü yeddinci mərtəbədən atacağımı söyləyəndən sonra keçdi yazıya.

İkinci elə bir zəng Məmməd Aslandan olub – Dədə Məmməd bir az ayrı cür sevgisini ifadə edib: məni söyüb-bulayıb, axırda deyib ki, a bala, o yazını mən yaza bilərəm, sən kimsən ki? Gəl görüm AZ.TV-yə, səni qapıda gözləyirəm!

Üçüncü dəfə əslən Laçından olan, atası ilə bir redaksiyada işlədiyim bir prokuror "Laçın" yazımı oxumuşdu, gecə saat 3-də tapmışdı telefonumu, ürəkdən elə təşəkkür elədi, az qaldı ürəyim dayansın!

Bu gün xalq şairi, istiqlalçı deputat, keçmiş nazir Sabir Rüstəmxanlının Süleyman Rəhimli – Süleyman Rəhimov haqqında xatirə-yazısını oxudum!

Yazıdakı iki məqam məni tərpətdi, şərhlərdəki anlaqsızlıq mənə yazdırdı bu yazını!

Əvvəla, Sabir bəy bu ölkədə nadir adamlardandır (bəlkə də birincisi Odur, ikincisi mən – o da yaşa görə) ki, dediyi sözün üstündə kimsə polemika-mübahisə-debat anlamında bazar aça bilməz: Sabir bəyin üstünə hər cür gedə bilərsən, yapışar da, yapışmaz da, bu barədə az sonra, amma və lakin... Söz ki Sözdən düşdü, Sabir bəy saqqal tərpətdi, orada nöqtəni də, nidanı da Sabir bəy qoyar – hakim Sabir bəydir, qalan hər şey icra məqamında!

Sabir Rüstəmxanlının Süleyman Rəhimli – Süleyman Rəhimov haqqında yazısında məni tərpədən birinci məqam:

Sabir Rüstəmxanlı Süleyman Rəhimovun əndazəsiz böyüklüyünü bir ştrixlə - epopeya həcmində yek kəlmə ilə çatdırıb: vaxtsız rəhmətə gedən alim Şamo Rəhimovun şair Şamo Rəhimov kimi geridönüş etməsini qələmə almasına Süleyman Rəhimli-Süleyman Rəhimov təşəkkür etmək üçün şəxsən redaksiyaya təşrif buyurub!

Siz başqasında görmüsünüz elə şey – o ranqda, o rütbədə, o sanbalda?

Baş redaktor Hüseyn Abbaszadə (xalq yazıçısı!) düşür Süleyman Rəhimlinin qabağına, gətirir dördüncü kurs tələbəsi Sabir Adışovun otağına (Sevil Gültənin hirsi, əslində, qərəzi soyusun deyə təfsilatı yazıram!) və tamaşa edir bir saat, saatyarım Süelyman Rəhimli necə tərifləyir bu cavan oğlanı!

Siz elə baş redaktor, elə nəhəng yazıçı görmüsünüz?

Sabir bəy görüb!

Mən də görmüşəm!

Ona görə də yazıdakı bu məqam mənə əzizdir!

ÇÜNKİ... on il, azından on il, Şeyxin bütün toxum-tayfası üçün mətbu killerlik etdim, özünə ən yaxşı mətbu cangüdən oldum, iyirmi il, azından iyirmi il "Azadlıq"ın maaşsız və qonorarsız əməkdaşı oldum, Allahşükür Paşazadə ilə Əli Kərimli Süleyman Rəhimli kimi nəinki redaksiyaya gəlib təşəkkür etdilər, nəinki zəng edib evə çağırdılar, nəinki konyak təklif etdilər, sonucda biri şərlədib tutdurdu, o biri də böhtan, hədyan yazdırmaqdan çəkinmədi, imkanı olsaydı, Şeyxdən də artığını edərdi – aparıb Binəqədi zibilliyində başıma işətdirib atdırardı ac itlərə!

Sabir Rüstəmxanlının bu bapbalaca bir xatirə yazısında GÖRÜRSÜNÜZMÜ Azərbaycanın keçmiş yazıçılarının, gələcək şairinin, hazırki jurnalistinin Sözə, Milli Əxlaqa, Böyüklüyə dəyərini, ifadəsini?

Bu yazıda bunu görmək lazım idi – mən gördüm və mənə xoş oldu. Öz payıma Sabir Rüstəmxanlıya təşəkkür edirəm: Hər bir yazı xalqın əxlaqının, sənət adamlarının və Sözün dəyərinin-təsirinin böyük olduğunu nümayiş etdirməlidir!

Radio-televiziya, qəzet-jurnal, sayt-bloq bunun üçündür!

Sabir Rüstəmxanlının yazısında məni tərpədən ikinci bir məqam: Süelyman Rəhimlinin – Süleyman Rəhimovun bu dəyərindən, etimadından heç vaxt sui-istifadə etməməsi!

Yoxsa indikilər kimi? Bir yazı yazırlar, qəzeti aparıb ta adamın qapısınacan atdırırlar, yetmiş dəfə zəng eləyirlər, yüz yetmiş dəfə mesaj yazırlar, imkan düşən kimi, baxmırlar, yas yeridir, toydur, sülənirlər adamın böyür-başında!

REZÜME: Yazdığın yazı obrazını təşəkkür üçün oturduğu yerdən qalxmağa məcbur etmirsə, unut getsin o adamı. Təəssüflənmə ki, dəyər vermisən – başa düşməyibsə, günah onun yox, sənindir!

ŞTRİX: Kimsə səndən yazı istəmirsə, özünə əl qatıb yazma – bunun adı g...girənlikdir!

YAZININ HÖKMÜ: Yazı... yaradıcılıqdır. Hər yazı adamı tərpətmir. Əminəm ki (Sabir bəyin o yazısını oxumamışam), Sabir Rüstəmxanlı bu xatirə yazısını necə möhtəşəm yazıbsa, Şamo Rəhimovdan olan yazı da elə möhtəşəm olub. Sözarası deyim ki, istedadlı adamlar bütün dövrlərdə eyni uğurla möhtəşəm yazırlar. Sadəcə, zamana cilalanma gedir! Bir az fəlsəfəsi durulur, bir az ağıl kamilləşir, bir az da həyat adamı müdrikləşdirir, amma YAZI manerası, tərzi, dərinliyi, dinamikası, dramatizmi eyni olaraq qalır – "rıvok-razqon", yerdən götürmə, sürət toplama texniki göstəriciləridir: gələn sel də, dağ uçqunu da son nöqtədə sıfırdır! 0-ın üstünə 1-i necə qoymaqdır istedad!

Sabir Rüstəmxanlı ilk yaradıcılıq anında – 0 vəziyyətində 1-i VAHİD edə bilib!

Gerisi təfərrüat!

*(Davamı 11-ci səhifədə)*

# SABİR RÜSTƏMXANLIYA TƏŞƏKKÜR ƏVƏZİ

*(Əvvəli 10-cu səhifədə)*

YAZIYA SÖZARDI:

Dinindən dönən, dağdan enən, sonradan görən... "əlaman, əlatəş, əlhəzər" kateqoriyasıdır!

Sabir Rüstəmxanlının bu cür möhtəşəm yazısının altında çox cılız şərhləri gördüm!

Ürəyim ağrıdı.

Halbuki Sabir bəyin bu yazısı məni tələbəlik illərimə apardı, auditoriyaya Qulu Xəlillinin-Qulu Xəlilovun gəlişini xatırlatdı!

Süleyman Rəhimlinin-Süleyman Rəhimovun ən qatı tərəfdarlarından, tədqiqatçılarından, təbliğatçılarından biri olub Qulu Xəlilli-Qulu Xəlilov! Üstəlik o vaxtlar bilirdim ki, Nurlana Əliyevanı (rektor olan) da bu istiqamətdə yönləndirib. Qulu müəllim mühazirələrində, imkan düşən kimi, Süleyman Rəhimli-Süleyman Rəhimov yaradıcılığından misallar gətirərdi, ondan danışardı!

İki məqam da Qulu Xəlilli-Qulu Xəlilovdan deyim, yazıya ayaq verim!

Adı dəqiq yadımda qalmayıb, Qulu Xəlilli deyirdi ki, filan əsərində yazır ki: "Güləndam (bəlkə də Gültamam, ya da Xanımbacı) durdu boyaboy güzgünün qabağında, əndamını fırladıb qayıtdı ki, ay Allah, bu cür gözəl bədən üçün bir kişi yarada bilmədin?"

Sabir Rüstəmxanlı sıravi-öləri adamların onu ittiham edə biləcəyi səviyyədə deyil, kimsə onu ittiham etmək istəsə, ya gərək ölkə prezidenti olsun, ya da parlament sədri! Aşağısı deyirəm ha!

O ki qaldı şərhlərdə ittiham səsləndirənlərə, o ittihamlara cavab verənlərə, qısaca bir cavabı var: əzizim Samir Əsədli, Sevil xanımın Sabir bəyə qərəzi, kini ola bilməz e, çünki o o Sevil Gültəndir ki, mənə Sabir bəyə görə ağzına gələni yazıb! Dava Şahbazın vermədiyi, ya da onun Şahbazdan umduğu pulu ala bilməməyin davasıdır!

Zaman-zaman belə olub: ya Şahbaza görə Sabir bəyi hədəfə alıblar, ya Əlövsət bəyə görə!

Sabir bəy nəinki Rüstəmxanlılar nəslinin, elə Azərbaycanın da zəif yeridir! Rusca "komu ne len" deyirlər, Azərbaycanda "yerindən duran", daş atır!



Halbuki... necə gözəl yazı idi, necə gözəl keçmiş vardı, necə böyük əxlaq vardı, necə böyük ehtiram vardı, necə gözəl nümunə vardı!

Görəsən, burda dostluqda olan jurnalistlərdən neçəsinə yazdığı yazıya görə o ranqda, o rütbədə, o titulda İmzalar təşəkkür edib, zəng edib, qonaq çağırıb, konyak vurub?

Birini deyim, bilin: Deməli, "Geopolitka XXI əsr" qəzeti təzə açılıb, "Ayna-Zerkalo" da götürüb İlyas İsmayılovla İlham Rəhimovun əleyhinə yazı yazıb! Mırta baxın da: ölkə tayfa-klan, regional idarəetmədə, bir qazaxlı götürüb iki tovuzlunu şişə çəkib. Müdafiəsinə də bir cənublu qalxıb: cavab yazısını mən yazmışam. Nətəri yıxıb sürümüşəmsə, baş redaktor İlyas İsmayılovla razılaşıb, müsahibə alıblar, veriblər. İlyas Abbasoviç də konyak qonaqlığını aşla verib Xanoğlan Əhmədovla Azər Rəşidoğluna... bağında! Necə deyərlər, "Mumu"nu yazıb Turge-



nev, heykəli qoyublar Puşkinə, daha doğrusu, Puşkinə heykəl qoyublar!

Salamat qalın – böyük olmağı bacarın! Sözün dəyərini bilin! Milli əxlaqı şokoladla örtməyin!

p.s. Sabir bəy, bir daha təşəkkür edirəm: Vaqif Bayatlı demiş, "hər kəsi ömründəki bir gözəl an yaşadır!"

p.p.s. Bildiniz niyə uzaqdan, lap uzaqdan başladım? Xarici ədəbiyyat bumu yarananda tələbə yoldaşımız, həmkarımız Yusif Rzayev kitab nuvorişlərinə deyirdi ki, ay ipləmə, sən əvvəl hələ Süelyman Rəhimovu oxu qurtar, anla, dəyərləndir, sonra Freyddən, Kafkadan Folknerdən danışarsan!"

Bildiniz də nə deyirəm?

p.p.p.s. Qulu Xəlilli-Qulu Xəlilov bir də onu deyirdi ki, sən neynirsən mənim fiziki parametrlərimi, mən belə lap ayıya oxşayıram, sən mənim şəxsiyyətimə dəyər ver! "Bəxt üzüyü" o cür gözəl fikri çevirib elədi:



"ala, "tvar", sən mənim içməyimi neyləyirsən, sən mənim işimə bax da!"

Öncə Vətəndən də öncə... Böyüklük, Böyük Söz və Milli Əxlaqın təntənəsidir!

Bildiniz nə deyirəm, zənnindəyəm!